**Azərbaycan Respublikasının Prezidenti yanında**
**Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının fəaliyyəti haqqında**

# ARAYIŞ

***30 oktyabr 2008-ci il***

Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının üzvləri Azərbaycan Respublikası Prezidentinin 16 aprel 2008-ci il tarixli 2759 nömrəli sərəncamı ilə təyin edildikdən sonra Şura fəaliyyətə başlamışdır.

Qısa zaman çərçivəsində Şuranın maddi-texniki təminatı təşkil edilmiş, Şuranın katibliyinin işçi heyəti formalaşdırılmış, müxtəlif təlimatlar, qaydalar, daxili əsasnamələr və digər normativ sənədlər hazırlanmışdır.

2008-ci ilin iyun ayında Şura qeyri-hökumət təşkilatları (QHT) üçün maliyyə yardımı müsabiqəsi elan etmiş və Şuraya 361 QHT-dən layihə təklifləri daxil olmuşdur. Daxil olan layihələrin ekspertizası təşkil olunmuş, layihələrin Şurada müzakirəsi keçirilmiş və 190 QHT-nin layihəsinin maliyyələşməsi barədə qərar qəbul edilmişdir. Avqust və sentyabr aylarından icrası başlanan bu layihələrin hazırda monitorinqi həyata keçirilir və müxtəlif dövrlər üçün müəyyən olunmuş hesabatları Katiblik əməkdaşları tərəfindən qəbul edilir.

Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurası haqqında Əsasnamənin 4.7 bəndinə müvafiq olaraq, Şuranın iclasları iki ayda bir dəfədən az olmayaraq keçirilməlidir. Fəaliyyət göstərdiyi 6 ay müddətində Şuranın 15 iclası keçirilmişdir.

## Şuranın 2008-ci il üçün maliyyə yardımı müsabiqəsinin vəziyyəti haqqında

Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurası QHT-lərin layihələrinin maliyyələşdirilməsi ilə bağlı elan etdiyi müsabiqənin ilkin nəticələri aşağıdakı qaydadadır:

- Müsabiqə **2008-ci ilin iyun ayının 12 -dən iyul ayının 2- dək** davam etmişdir.
- Müsabiqə müddətində Şuranın Katibliyinə **361 layihə daxil olmuşdur**.
- Daxil olan layihələrdən **290 layihə Bakı** şəhəri, **71 layihə isə region** təşkilatlarına aiddir.
- Elan olunmuş maliyyə **yardımı müsabiqəsinin ümumi fondu 1 200 000 manat** təşkil etmişdir.
- Daxil olan layihələrin ümumi məbləği isə **5 576 471 manat** təşkil edir.

Şuranın Katibliyi tərəfindən daxil olan layihələrin ilkin seleksiyası aparılmış və seleksiyanın nəticəsi olaraq, **24 təşkilatın** sənədləri müvafiq qaydalara uyğun olmadığına görə ekspertizadan kənarlaşdırılmışdır. Bunlardan:

- **10 təşkilat** ayrı-ayrı QHT-lərin **filialları**
- **1 təşkilat** Həmkarlar Komitəsi
- **13 təşkilatın** sənədləri isə Şuranın tərtib etdiyi qaydalara uyğun deyil.

Ümumilikdə **ekspertizaya 337 layihə** təqdim edilmişdir. Ekspertizaya təqdim olunmuş bəzi layihələrdə bir sıra çatışmazlıqların olmasına baxmayaraq həmin layihələr də ekspertizaya təqdim olunmuşdur. Çatışmazlıqlar əsasən aşağıdakılardan ibarətdir:

- Dövlət qeydiyyatı haqqında **şəhadətnamənin surəti** ərizəyə əlavə olunmayıb;
- **VÖEN-nin surəti** ərizəyə əlavə olunmayıb;
- **CV ingilis** dilində təqdim olunub;
- **Büdcə Microsoft Office Word** proqramında təqdim olunub;
- Problemin təsviri **1 səhifədən çoxdur** (qaydaya görə 1 səhifədən çox olmamalıdır).